## Özümüz haqqında

"Dünya Azadlıq Günü" layihəsi 2004-cü ildə təsis edilərək qeydiyyatdan keçmiş (qeydiyyat nömrəsi: 1108682) və London şəhərində yerləşən xeyriyyəçi "Transatlantika" İnstitutunun (www.t-i.org.uk) layihəsidir.

"Transatlantika" İnstitutu İngiltərə qanunlarına uyğun olaraq xeyriyyə fondu kimi yaradılmış xeyriyyəçi təhsil müəssisəsidir.

Böyük Britaniya və ABŞ vergi ödəyiciləri bizim işimizə dəstək vermək üçün vergi üçün səmərəli ianələr verə bilərlər. Xahiş edirik ki, daha ətraflı məlumat üçün bizimlə əlaqə saxlayasınız (e-poçt: info@t-i.org.uk).

## Əməkdaşlar

*İdarə heyətinin üzvləri:*

Mark Outn, Vinçester qraflığından parlament üzvü
Professor Konrad Lixtenşteyn
Mark Litlvud
Uilyam Arturz FCA

*Direktor*: Ziba Norman

*Məsləhət şurası*:

Aşiş Bhatt, Direktor müavini, Diçli Fondu
Dominik Hilton, "açıqDemokratiya" üçün məsul redaktor və şərhçi jurnalist
Professor Stiven Hau, tarixçi
Qreqori Kats, yazıçı və şərhçi




*"Dünya Azadlıq Günü"nə həsr olunmuş hava şarları və bilərziklər*

Hava şarlarını və bilərzikləri "Transatlantika" İnstitutunun "Dünya Azadlıq Günü" layihəsindən əldə etmək olar.
E-poçt: info@worldfreedomday.org.uk
Vebsayt: www.worldfreedomday.org.uk
Hava şarlarının iyirmi ədəd şardan ibarət bir bağlamasının qiyməti 10 funt sterlinqdir.
Bir bilərziyin qiyməti isə 1 funt sterlinqdir. (Qablaşdırmaq və göndərilmək üçün əlavə xərc tələb olunur.)
Sözügedən hava şarlarının və bilərziklərin mövcud olub- olmaması ilə əlaqədar bizim internet-mağazaya baş çəkin və ya bizimlə e-poçtla əlaqə saxlayın.

## "Dünya Azadlıq Günü" nə deməkdir?

**9 noyabr 1989-cu il tarixində Berlin divarının yıxılmasının ildönümü "Dünya Azadlıq Günü" kimi qeyd olunur. "Transatlantika" İnstitutu bu tarixi günün dünyanın hər yerində anılmasını koordinasiya edir və dəstəkləyir. Dünyanın hər tərəfindən fəaliyyət göstərən digər təşkilatlarla birlikdə biz "Dünya Azadlıq Günü"nü beynəlxalq təqvimə daxil edəcəyik.**

*Mən tez-tez özümdən soruşuram ki, insanlar nəyə görə hər hansı hüquqlara malikdir. Mən həmişə belə bir nəticəyə gəlirəm ki, insan hüquqları, insan azadlıqları və insan ləyaqəti haradasa qavranılan dünyadan kənarda dərin köklərə malikdir. Bu dəyərlər özlərinə xas dərəcədə möhtəşəm dəyərlərdir, çünki müəyyən şəraitlərdə insanlar onları məcbur olmadan qəbul edirlər və onların uğrunda ölməyə can atırlar. – Vatslav Havel*

## “Dünya Azadlıq Günü”nü bayram etmək nə üçün əhəmiyyətlidir?

Dünyada baş verən bir çox mübarizələrin dərk edilməsi üçün dəyərli nümunə təmin etdiyinə görə iyirminci əsrin ən önəmli hadisələrindən birinin aydın başa düşülməsinə kömək etmək üçün. Eyni zamanda, bu, diqqətlilik və sayıqlığın azad cəmiyyətin təmin olunmasının açarı olduğunu xatırladan bir bayram anlamına gəlir. Belə ki, keçmişdə olduğu kimi azadlıq qurbansız gəlmir.

## 2007-ci ildə “Dünya Azadlıq Günü” hansı tarixə düşür?

2007-ci ildə “Dünya Azadlıq Günü” noyabr ayının 9-na cümə gününə düşür.

## Sizin təşkilatınız bu tədbirə necə cəlb oluna bilər?

Biz bu məlumatı oxuyanların və özlərini azadlıq tərəfdarları hesab edənlərin hamısını həm 1989-cu ildə baş vermiş hadisələri xatırlamaq, həm də azadlığın onlar üçün nə demək olduğunu və onu necə qorumağın və möhkəmləndirməyin mümkün olduğunu müzakirə etmək üçün noyabr ayının 9-da mitinq keçirməyə dəvət edirik.

Məktəblər, dini təşkilatlar, QHT-lər və tələbə qrupları bu tədbirə cəlb oluna bilərlər, məs: musiqiçilər azadlığa xüsusi bir konsert həsr edə və Berlin divarının yıxılmasını qeyd edə bilərlər.

## Azadlıqla bağlı müzakirələr açmaq üçün suallarla bağlı təkliflər

- Azad cəmiyyətlə azad olmayan cəmiyyət arasında fərq nə ilə qeyd olunur?
- Hazırda qorunan azad cəmiyyətlərdə azadlıqlardan necə istifadə olunur və bu azadlıqları hansı digər yollarla qorumaq olar?
- Azadlıqların qorunmasının təmin edilməsində vətəndaşlar hansı rolu oynamalıdırlar?
- Bizim yaşadığımız cəmiyyət daha çox azad olmaqdadır, yoxsa daha az azaddır?

## Biz “Dünya Azadlıq Günü”nü necə bayram edə bilərik?

“Transatlantika” İnstitutu üstünə yazılar yazılmış xüsusi ağ rəngli DAG hava şarları hazırlamışdır və təklif edir ki, mümkün olan yerlərdə siz dünyanın hər tərəfində sözügedən günü qeyd etmək məqsədilə səmaya ağ şarlar buraxacaq eyni fikirli insanlarla həmrəylik əlaməti olaraq kiçik çevrəli bir mərasimdə bir neçə ağ hava şarını səmaya buraxasınız. Eyni zamanda, biz silikondan DAG bilərzikləri də hazırlamışıq. Bizim hava şarlarımız və bilərziklərimiz sifariş üçün məlumatla birlikdə o biri vərəqdə təsvir olunur.

Biz hava şarının səmaya buraxılmasının texniki aspektləri barədə sizə məsləhət də təklif edə bilərik.

Əgər siz bu məsələləri əhəmiyyətli hesab edirsinizsə, onda bizə qoşulun. Biz 2007-ci ildə DAG ilə bağlı bayramlar və mərasimlərin fotoşəkilləri əks olunan bir veb- səhifə tərtib edəcəyik və əgər siz öz təşkilatınızın orada yer almasını istəsəniz, xahiş olunur, bizim saytımıza daxil edilməsini istədiyiniz fotoşəkili və ya hər hansı başqa şərhləri bizə göndərəsiniz.

Sülh və azadlıq uğrunda!

## Biz sizə daha nə cür kömək edə bilərik?

Hava şarlarının səmaya buraxılması ilə bağlı texniki məsləhətin verilməsi ilə yanaşı biz yerli kütləvi informasiya vasitələrinə göndərilmək üçün bir mətbuat üçün açıqlamanın hazırlanmasında da sizə kömək edə bilərik və (sizin xüsusi icazənizlə). Biz sizin keçirdiyiniz tədbirin təfərrüatlarını Londonda yerləşən və beynəlxalq kütləvi informasiya vasitələrində əks etdirəcəyik.

## Əlaqə təfərrüatları

Bizimlə aşağıdakı e-poçtla əlaqə saxlayın:

*info@worldfreedomday.org.uk*

Kütləvi informasiya vasitələri ilə bağlı sorğuları aşağıdakı sayta göndərin:

*media@worldfreedomday.org.uk*